

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 38-39 (7275-7276) Cümə, 5 iyun 2015-ci il Qəzet ayda 4 dəfə çıxır Qiyməti 40 qəpik


# Azərbaycan Prezidenti İlham Əliyev XXII Beynəlxalq “Xəzər Neft və Qaz 2015” sərgisinin açılışında iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iyunun 2-də Bakı Sərgi Mərkəzində XXII Beynəlxalq “Xəzər Neft və Qaz 2015” sərgisinin açılış mərasimində iştirak ediblər.

Mərasimi açan “ITE Group Plc” şirkətinin baş məsləhətçisi **Endryu VUD dedi:**

**-Zati-aliləri cənab Prezident Əliyev!**

**Xanımlar və cənablar!**

Bu gün burada “ITE Group Plc” adından və eyni zamanda, XXII Xəzər Neft və Qaz Sərgi və Konfransının təşkilatçı komitəsi kimi iştirak etməkdən çox böyük məmnunluq duyuram.

Bu sərgi beynəlxalq gündəmdə artıq bir ənənəyə çevrilib. Neft və qaz sənayesi sahəsində ilk sərginin təməli sabiq Prezident cənab Heydər Əliyev tərəfindən qoyulub. Burada enerji sektoruna aid fürsətlər və imkanlar əvvəlki illərdə olduğu kimi, bu ilin də əhəmiyyətini artırır və bizim buraya gəlməyimizi daha önəmli edir. Bu sərgidə 300-dən çox şirkət iştirak edir, 20-dən artıq ölkə təmsil olunur. Eyni zamanda, bu sərgidə Almaniyadan, Rusiyadan, Çindən və digər ölkələrdən şirkətlər iştirak edir. İlk dəfə Çexiyadan və Polşadan şirkətlər bu sərgidə təmsil olunur.




Azərbaycan hər zaman bu cür sərgilərə və konfranslara öz dəstəyini verib. Buna görə biz Azərbaycan hökumətinə öz təşəkkürümüzü bildiririk. Biz Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə işimizi böyük məmnuniyyətlə davam etdiririk və buna görə də təşəkkür edirik.

Lakin zati-aliləri, biz xüsusilə Sizə öz təşəkkürümüzü bildirmək istəyirik. Sizin bizə verdiyiniz dəstək və Azərbaycanda keçirilən bütün tədbirlərə yüksək diqqət və qayğınız çox böyük əhəmiyyət daşıyır. Bu gün Sizin bu mərasimdə iştirakınız sərgi və konfransımızın nə dərəcədə əhəmiyyətli olduğunu bir daha vurğulayır.

Sonda mən bu fürsətdən istifadə edərək, zati-aliləri, təşkilatçılar adından Sizi və Azərbaycan xalqını ilk Avropa Oyunlarının keçirilməsi münasibətilə təbrik edirəm. Bu, nəinki mühüm tədbirdir, eyni zamanda, idman tarixində qalacaq böyük bir hadisədir.

Xanımlar və cənablar, bu sərgi-konfransda iştirak edənlərin hamısına uğurlar arzu edirəm. Hesab edirəm ki, biz birlikdə yeni-yeni fürsətlər axtarmalıyıq ki, bu sahəni daha da inkişaf etdirək. Çox sağ olun. Təşəkkür edirik.

Dövlət başçısı açılış mərasimində nitq söylədi.

**(Nitq mərkəzi mətbuatın səhifələrində dərc olunub).**



# I Avropa oyunlarına 7 gün qaldı



***İyunun 12-də müstəqil Azərbaycanın tarixində yeni bir dünya rekordunun səhifəsi açılacaq. İndiyə qədər belə bir mötəbər idman tədbirinə 7-8 il vaxt ayrılırdısa Azərbaycanda bu hazırlıq cəmi 2 il yarıma başa çatmışdır.***

**50 ölkənin iştirak edəcəyi bu idman tədbiri 17 gün davam edəcək. 20 idman növü üzrə 6000-dən çox atlet yarışlarda öz gücünü sınayacaq və qalib gəlmək uğrunda mübarizə aparacaqdır. Qalibləri bütün idman növləri üzrə 253 dəst medal gözləyir.**

Xüsusi olaraq qeyd olunmalıdır ki, ilk dəfə Avropa Oyunlarının keçirilməsi qitə üçün böyük hadisədir. Ölkəmiz üçünsə tarixi uğur kimi yaddaşlarda qalacaqdır. Əlbəttə, Azərbaycan bu uğura həm ölkə daxilində görülən sürətli sosial-iqtisadi tədbirlər, böyük quruculuq işləri, həm də dünyada qazandığı liderlik keyfiyyətlərinə görə nail olmuşdur. Oyunların keçirilməsinə aparılan yüksək hazırlıq işləri deməyə əsas verir ki, Azərbaycan I Avropa Oyunlarını Yay Olimpiya Oyunları səviyyəsində keçirməyə hazırdır.

Bir daha xatırladaq ki, I Avropa Oyunlarının keçirilməsi barədə qərar 2012-ci il dekabr ayının 8-də Romada Avropa Olimpiya Komitəsinin 41-ci Baş Assambleyasında qəbul edilib. Bu oyunların 4 ildən bir keçirilməsi qərara alınıb. Baş Assambleya iştirakçıları arasında keçirilmiş gizli səsvermə nəticəsində 38 səslə (əleyhinə 8, bitərəf 2 səs) ilk Avropa Oyunlarının Bakıda keçirilməsi təsdiq edilib.

Oyunlar iyun ayının 12-də başlayıb 28-dək, 17 gün davam edəcək. Yarışlarda 6000-dən çox idmançı çimərlik futbolu, 3x3 basketbolu, karete və sambo kimi qeyri-olimpiya idman növləri də daxil olmaqla, ümumilikdə 20 növdə mübarizə aparacaqdır. On iki idman növü «Rio-2016» Yay Olimpiya Oyunları üçün təsnifat xarakteri daşıyacaq və 18 idman obyektində keçiriləcəkdir.

Avropa Oyunlarının medalları «Bakı-2015» brendinə uyğun şəkildə hazırlanmış unikal təsvirlərə malikdir. Medalların tərtibatı « Soçi-2014» qış olimpiya və paralimpiya oyunlarının medallarını hazırlamış məşhur zərgər brendi Adamasla azərbaycanlı rəssam Nərgiz Hüseynovaya məxsusdur. Medalar «Azersuvenir» şirkəti tərəfindən Azərbaycanda hazırlanıb.

Oyunların gedişini işıqlandırmaq üçün 1500-ə yaxın media nümayəndəsi qeydiyyatdan keçib. Xarici ölkələrin 900-ə yaxın jurnalisti media kəndində yaşayacaqdır.